# Səmada Görüş

## I hissə

**Əziz oxucu, Sədanın evinə xoş gəlmisiniz!**

Bu ev sizə bəzən doğma, bəzən çox yad və dağınıq gələcək. Elə həyatın özü kimi, bir əks-səda kimi. Hər bir halda, evdə əşyaların yerini dəyişməyə güc və vaxt sərf etməyin. Çünki nə qədər sevimli qonaq olsanız da, siz burada yaşamırsınız. Geri dönməyə evinizin açarı isə həmişə və hər yerdə özünüzdədir.



# MÜNDƏRİCAT




Dönüş nöqtəsi ........ 8
Proloq ........ 9
Oyanış zəngi ........ 9
Yeni üfüqlər ........ 11
Dünyanın ailəsi ........ 18
Zirvə ........ 27
Oyundan çıxış ........ 44
Nəfs və nəfəs ........ 55
Özünə dönüş ........ 57
Ağın qaraya eşqi ........ 77
Səhradan səmaya doğru ........ 92
Açıq qapı ........ 101
Sülh şəhəri ........ 108
Sirlər diyarı ........ 125
Ulduz pərisi ........ 139



# DÖNÜŞ NÖQTƏSİ

O gün əhvalı kədərin bənövşəyi rəngində idi. Sahildə oturub bir-birini qovan dalğalara tamaşa edirdi. Hər bir dalğa özündə tüğyan edən sonsuz enerjisi ilə Sədaya uşaqlığını xatırladırdı. O uşaq ki, "Dünya mənimdir" deyərək, dalğalara baş vurur və onlarla birgə yenidən doğulurdu. Amma artıq dalğalar kimi yenilənə, ruhunda həyatın və zamanın sonsuz axışını hiss edə bilmirdi. Boğazını sıxan, nəfəsini daraldan bu kədər hər dalğa ilə bir az da yüksəlirdi. Kədərə təslim olub, dalğaların içində özünü itirməyə cəsarəti çatacaqdımı? Sədanı qarşıda iki yol gözləyirdi: ya Ölü dəniz kimi zamanla quruyacaq, ya da dalğaların qucağında yenidən doğulub, yoxdan var olacaqdı.

# PROLOQ
# **OYANIŞ ZƏNGİ**

*"Zəng səsi və dərs başlayır, günün sonuncu dərsi – rəsm. Uşaqlar bu dərsə oyun kimi baxsalar da, Səda üçün şəkil çəkmək ağır iş idi. Onun üçün rəsm ağ səhifənin saflığını itirdiyi, ağlamanın qaralamaya dönüşdüyü bir həyat dərsi idi. Həmin gün uşaqların arxasında, düşüncələrinin içində görünməz olduğunu zənn etsə də, müəllimin baxışlarından qaçış yolu yox idi. Səda da hamı kimi, növbəti 45 dəqiqə ərzində "Müasir həyat" mövzusunda rəsm çəkməkdən zövq almalı idi. Odur ki, qələmi götürür, vərəqdə uzun bir xətt çəkir.*



*Xəttin əvvəlində doğum, ortasında yaşam, sonunda isə ölüm yazır. Sonra müasir həyatını ağıllı şəhərlər, ağıllı evlər, ağıllı əşyalar və insanlarla doldurur. Buna o qədər vaxt sərf edir ki, dərsin bitməsinə çox az vaxt qalır. Son toxunuşları edərək, vərəqi götürüb, ona kənardan baxır. Riyazi dəqiqliklə çəkilmiş rəsmin içində hər şey görür, tək özündən savayı.* ***Dolub-daşan bu boşluqda özünü çəkmək istəsə də, nə yer tapır, nə də vaxt. Zəngin səsi və dərs bitir...****”*

# YENİ ÜFÜQLƏR

Hər gecə olduğu kimi, yüzlərlə məlumat atılmış yaddaşını bir anlıq dondurmağa, hüzur tapmağa çalışırdı. Gözlərini yumacaq, sonsuzluğa qərq olacaq və bütün qəlbi ilə duyduğu Allahına üz tutacaqdı. Bu söhbət uzun-uzun şikayətlərdən, qısa şükür və dualardan ibarət olsa da, ona rahatlıq verirdi. O gün də gözlərini yumdu, düşüncələrini və hisslərini paylaşdıqdan sonra şirin yuxuya getməyə çalışdı, amma bacarmadı. Hiss etdi ki, Allah ondan razı qalmayıb, səbəbini isə anlaya bilmədi. Bir az sonra yoruldu, şirin olmasa da, birtəhər yuxuya getdi.

Allah onu şən insan olaraq yaratmamışdı, bəzən bununla mübarizə aparsa da, əslində çoxdandır öz təbiəti ilə barışmışdı. Hətta bu səbəbsiz yaranan kədəri sevməyə başlamış, hiss etdiyi ən doğma duyğuya çevrilmişdi. Qəlbinin dərinliklərində inanırdı – Allah onu sevir və hər anında yanındadır. Elə bu inamla bütün duyğuları həyatın gözəl hədiyyəsi kimi qəbul edir, onları səmimi şəkildə yaşamağa çalışırdı. İç səsi isə sakit, amma qərarlı bir şəkildə

söyləyirdi: *“O, eşqdir – şərtsiz və sonsuz”.* Eşqdən qorxanların ağılla düşünülmüş inancları və zahiri dünyaları isə həmişə ürəyini sıxırdı.

Səhər şirin olmayan yuxudan kal oyanıb, uçuşa yetişmək üçün hava limanına tələsir. Tez-tez səyahət etsə də, hər dəfə səma ilə görüşü eyni həyəcanla gözləyirdi. Uçuşun ən sevdiyi hissəsi isə dənizlə mavi səmanı ayıran ağ buludlar arasında olmaq idi. Sirlərlə dolu göylə yer arasında bir aydınlıq kimiydi bu buludlar. Həyatda olub, bir anlıq cənnətə düşmək kimi. Burada heç bir başlanğıc və ya son yox idi, yalnız uçuş və azadlıq var idi. Bu səfər təyyarənin qanadları səma ilə birləşərkən, zamanın dayanmış olduğunu hiss edir. Sanki tamamilə fərqli bir iqlim qurşağına düşmüş olur. Səmanın ucalığında hər şeyin mümkün olduğu bir yerə varır. Nə baş verdiyini dərk etməsə də, səmanın doğma bir parçası kimi, buludların, günəşin, ayın söhbətlərini eşidə bilir. Buludların arasından sıyrışaraq, düz gözünə düşən parlaq bir işıq isə dil açıb söyləyir ona:

